## Azərbaycan iqtisadiyyatında 1620,6 min nəfər muzdla çalışır

Dövlət Statistika Komitəsinin apardığı «Əhalinin iqtisadi fəallığına dair» seçmə statistik araşdırmanın nəticələrinə əsasən, iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1620,6 min nəfər təşkil etmişdir.

Dövlət Statistika Komitəsindən AzərTAc-a bildirmişlər ki, iyul ayı üzrə orta aylıq əməkhaqqının hesablanması üçün qəbul edilmiş muzdlu işçilərin orta siyahı sayı 1391,5 min nəfər olmuş və onlardan 850 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 541,5 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir.
Muzdla işləyənlərin 23,7%-i təhsildə, 19,4%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,4%-i sənayedə, 9,5%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 7,2%-i tikintidə, 5%-i nəqliyyat və anbar təsərrüfatında, 3,2%-i peşə, elmi və texniki fəaliyyət sahəsində, 3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,8%-i informasiya və rabitə sahəsində və 14,8%-i iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.